AZƏRBAYCAN RESPUBLİKASI ƏDLİYYƏ NAZİRLİYİNİN HÜQUQİ ŞƏXSLƏRİN DÖVLƏT QEYDİYYATI ÜZRƏ B Ə R D Ə BÖLGƏ ŞÖ 'BƏSİNDƏ

**«DÖVLƏT QEYDİYYATINA ALINMIŞDIR»**

ŞƏHADƏTNAMƏ № 1002-A1-402

«28» yanvar 2003-CÜ İL.

MÜDİR: M.O.HÜSEYNOV

TƏ' SİSÇİ:

İSMAYILOV FAMİL ƏNVƏR OĞLU TƏRƏFİNDƏN

**«TƏSDİQ EDİLMİŞDİR»**

F.Ə.İSMAYILOV

27 YANVAR 2003-CÜ İL

# «QARDAŞLIQ»

## MƏHDUD MƏS'ULİYYƏTLİ CƏMİYYƏTİN NİZAMNAMƏSİ

AĞCABƏDİ – 2003

## *1. ÜMUMİ MÜDDƏALAR*

1.1. Bundan sonra bu Nizamnamədə «Cəmiyyət» adlanacaq **«Qardaşlıq» Məhdud Məs'uliyyətli Cəmiyyət** müstəqil təsərrüfat subyekti olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, digər qanunvericilik aktlarına uyğun olaraq yaradılır və bu Nizamnamə əsasında fəaliyyət göstərir.

1.2. Cəmiyyətin adı: **«Qardaşlıq»**

1.3. Cəmiyyətin təşkilati-hüquqi forması: Məhdud Məs'uliyyətli Cəmiyyət.

1.4. Cəmiyyətin hüquqi ünvanı: Azərbaycan Respublikası, Ağcabədi rayonu, Aşağı Avşar kəndi.

## *2.CƏMİYYƏTİN HÜQUQİ STATUSU*

2.1. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun hüquqi şəxsdir, istər Azərbaycan Respublikasında, istərsə də onun hüdudlarından kanarda quvvədə olan qanunlara və bu Nizamnaməyə zidd olmayan hər cür əqdlər, sazişlər, müqavilələr bağlamaq, mülkiyyət, əmlak və şəxsi qeyri-əmlak hüquqlarını əldə etmək hüququna malikdir. Cəmiyyət müstəqil balansa, möhürə, ştampa, firma işarəsinə (emblemə), bank hesablarına və digər rekvizitlərə malikdir.

## *3. CƏMİYYƏTİN TƏ'SİSÇİSİ HAQQINDA MƏLUMAT*

3.1. Cəmiyyətin tə'sisçisi və əmlakının mülkiyyətçisi **İsmayılov Famil Ənvər** oğludur.

Tə'sisçinin ünvanı: Azərbaycan Respublikası, Ağcabədi rayonu, Aşağı Avşar kəndi.

Pasport seriya: XVI-JQ № 590537, 17.02.81-ci ildə Ağcabədi DİŞ tərəfindən verilmişdir.

3.2. Cəmiyyətin tə'sisçisi onun öhdəlikləri üzrə məsuliyyət daşımır və Cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün qoyduğu mayanın dəyəri həddində risk daşıyır.

## *4. CƏMİYYƏTİN HÜQUQLARI*

4.1. Cəmiyyət bu Nizamnamə ilə nəzərdə tutulmuş və Azərbaycan Respublikasının qanunvericilik aktları ilə qadağan olunmamış təsərrüfat fəaliyyətinin istənilən növü ilə məşğul olmaq hüququna malikdir.

4.2. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş şərtlərə əməl etməklə Azərbaycan Respublikasında və xaricdə hüquqi şəxs statuslu tabe (törəmə) müəssisələr və eyni zamanda filial və nümayəndəliklər yarada bilər.

4.3. Cəmiyyət özünün təsərrüfat və digər fəaliyyət növlərini həyata keçirərkən öz təşəbbüsü ilə Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan qərar qəbul etmək hüququna malikdir.

4.4. Cəmiyyət istehsal etdiyi məhsula, iş və xidmətlərə görə qiymətlər müəyyən etmək və onların realizasiyası şərtlərini respublikanın daxili bazarında

müəyyən etmək, bu bazardan xidmət, iş və məhsulların tədarükçülərini seçmək hüququna malikdir.

4.5. Cəmiyyət istənilən bankda hesablaşma və digər hesablar aça bilər.

4.6. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq müstəqil xarici iqtisadi fəaliyyət həyata keçirmək hüququna malikdir.

4.7. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericilik aktları ilə nəzərdə tutulmuş şərtlərlə və qaydada assosiyasiyalarla, konsernlərlə, konsorsiumlarla və digər birliklərlə birləşə bilər.

4.8. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər əmlak və şəxsi qeyri-əmlak hüquqlarına malikdir.

## *5. CƏMİYYƏTİN ÖHDƏLİKLƏRİ*

5.1 Cəmiyyət öz öhdəlikləri üçün ona mənsub bütün əmlakla cavabdehdir.

5.2. Qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla Cəmiyyət tə'sisçilərin öhdəlikləri üzrə cavab vermir.

5.3. Cəmiyyət Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq vergiləri və digər məcburi ödəmələri ödəyir.

5.4. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericilik aktları ilə nəzərdə tutulan vəzifələri yerinə yetirir.

## *6. CƏMİYYƏTİN NİZAMNAMƏ KAPİTALI*

6.1. Cəmiyyətin əmlakına qoyulan maya puldan, qiymətli kağızlardan, başqa əmlakdan və ya əmlak hüquqlarından və ya pul dəyəri olan digər hüquqlardan ibarət ola bilər.

6.2. Cəmiyyətin Nizamnamə kapitalı 50.000 (əlli min) manat həcmində hər biri 10.000 (on min) manat olmaqla, beş paydan ibarətdir və tə*sisçi (tə*sisçilər) tərəfindən birdəfəyə ödənilməlidir. Bu öhdəlik pozulduqda onlar Ümumi Yığıncağın Qərarı ilə qəbul olunmuş qaydalara müvafiq məs*uliyyət daşıyırlar.

6.3. Tə*sisçi İsmayılov Famil Ənvər oğlu 100% paylara malikdir.

6.4. Cəmiyyətin Nizamnamə kapitalına tə'sisçilərin öz payını qoyma müddəti Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə tənzimlənir.

6.5. Cəmiyyətə yeni tə'sisçi qəbul olunduqda müəyyən olunmuş forma, qaydada və müddətdə Cəmiyyətin Nizamnamə kapitalına maya qoymağa borcludur.

6.6. Cəmiyyətin Nizamnamə kapitalının miqdarı onun kreditorlarının mənafelərinə təminat verən məbləğdən az ola bilməz.

6.7. Cəmiyyət istənilən vaxt Nizamnamə kapitalının miqdarını artıra, yaxud azalda bilər.

6.8. Cəmiyyətin Nizamnamə kapitalının dəyişdirilməsinə dair qərarı dövlət reyestrində müvafiq məlumatların daxil edilməsi anından etibarən qüvvəyə minir.

6.9. Cəmiyyətin təsisçisinin cəmiyyətin nizamnamə kapitalına maya qoymaq vəzifəsindən azad edilməsinə, o cümlədən Cəmiyyətə qarşı tələblərin əvəzləşdirilməsi yolu ilə azad edilməsinə yol verilmir.

6.10. Əgər ikinci və ya hər bir növbəti maliyə ili başa çatarkən cəmiyyətin xalis aktivlərinin dəyəri Nizamnamə kapitalından az olarsa, Cəmiyyət öz

nizamnamə kapitalının azaldığını elan etməyə və müəyyənləşdirilmiş qaydada qeydə aldırmağa borcludur. Əgər Cəmiyyətin göstərilən aktivlərinin dəyəri nizamnamə kapitalının minimum miqdarından az olarsa, Cəmiyyət ləğv edilməlidir.

6.11. Cəmiyyətin Nizamnamə kapitalının azaldılmasına onun bütün kreditorlarını xəbərdar etdikdən sonra yol verilir. Bu halda kreditorların ixtiyarı var ki, Cəmiyyətin müvafiq öhdəliklərinin vaxtından əvvəl icrasını və ya xitamını və düşdükləri zərərin əvəzinin ödənilməsini tələb etsinlər.

6.12. Cəmiyyətin təsisçisilərinin nizamnamə kapitallarındakı paylarının özgənin-kiləşdirilməsi Azərbaycan Respublikasının mülki qanunvericiliyi əsasında həyata keçirilir.

## *7. CƏMİYYƏTİN EHTİYAT VƏ DİGƏR FONDLARI*

7.1. Cəmiyyət ehtiyat (sığorta), amortizasiya, xeyriyyə və digər fondlar yarada bilər.

## *8. CƏMİYYƏTİN FƏALİYYƏTİNİN MÖVZUSU VƏ CƏMİYYƏTİN ƏSAS FƏALİYYƏT NÖVLƏRİ*

8.1. Cəmiyyətin yaradılmasının və fəaliyyətinin əsas məqsədləri aşağıdakılardır:
Müxtəlif növ xidmətlərin göstərilməsi, işlərin görülməsi, məhsulların istehsal və realizasiya edilməsi, xarici və yerli fiziki və hüquqi şəxslərin tələbatlarının təmini, Cəmiyyətin fəaliyyətindən gəlirin əldə edilməsi və əldə edilən həmin gəlir hesabına Cəmiyyətin, onun işçilərinin və tə'sisçisinin iqtisadi maraqlarının təmini.

8.2. Cəmiyyət bu Nizamnamə ilə nəzərədə tutulmuş məqsədlərin yerinə yetirilməsi üçün aşağıdakı fəaliyyət növlərini həyata keçirir:

- bina və yaşayış evlərinin, komplekslərin və qurğuların, köməkçi obyektlərin tikintisi və tə*miri, o cümlədən əhaliyə digər tikinti xidmətlərinin göstərilməsi;
- ağac e*malı sexlərinin təşkili, ağac materiallarından müxtəlif mə*mulatların hazırlanması və satışı, mebel və mebel mə*mulatlarının istehsalı və alqı-satqısı;
- yerli ehtiyyatlar hesabına bəzi inşaat materiallarının istehsalı və alqı-satqısı;
- xalq istehlakı və sənaye mallarının istehsalı və satışı;
- kənd təsərrüfatı məhsullarının (əkinçilik, bitkiçilik, meyvə-tərəvəzçilik, maldarlıq, quşçuluq, balıqçılıq və s.) istehsalı, tədarükü, e*malı və satışı;
- taxıl və taxıl məhsullarının tədarükü, e*malı və satışı;
- çörək-bulka, qənnadı və müxtəlif nov ərzaq məhsullarının istehsalı və satışı;
- təlabat mallarının və texniki tə'yinatlı məhsulların istehsalı və satışı, toxuculuq və xalça mə'mulatlarının istehsalı, habelə onların bərpası, tekstil, trikotaj və tikiş mə'mulatlarının istehsalı və satışı, gön-dəri məhsullarının tədarükü, e*malı və satışı;
- kommersiya fəaliyyəti, pərakəndə və topdansatış ticarəti, komisyon və firma mağazalarının, yarmarkaların təşikli və işlədilməsi;

- satış məqsədilə dövlət və qeyri-dövlət təşkilatlarından, əhalidən köçürmə və nəqd yolu ilə məhsulların alqı-satqısı, ticarət və vasitəçilik xidmətlərinin göstərilməsi, barter üzrə malların dəyişdirilməsi, sərhədyanı ticarət əlaqələrinin yerli və xarici hüquqi və fiziki şəxslərlə aparılması;
- hüquqi və fiziki şəxslərə müxtəlif növ məişət xidmətinin göstərilməsi, iaşə obyektlərinin (çayxana, kafe, qəlyanaltıxana və s.) təşkili və işlədilməsi;
- avtomobillərin və onların ehtiyyat hissələrinin alqı-satqısı, avtomobillərə texniki xidmət sexlərinin, avtodayanacaqların, avtoyuyucuların təşkili və işlədilməsi;
- avtomobil nəqliyyatı ilə şəhərdaxili və şəhərlərarası sərnişin və yük daşınması;
- qanunvericiliklə müəyyən edilmiş qaydada xarici-iqtisadi fəaliyyətin həyata keçirilməsi;
- qanunvericiliklə qadağan edilməyən digər fəaliyyət növləri.

8.3. Cəmiyyət digər dövlət və yerli özünüidarə orqanlarından, həmçinin vətəndaşlardan sifariş qəbul edib yerinə yetirə, bina və avadanlıqları icarəyə götürə və verə bilər.

Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan digər fəaliyyət növlərini həyata keçirə bilər.

Xüsusi icazə alınmasını tələb edən müəyyən fəaliyyət növləri ilə Cəmiyyətin məşğul olmasına yalnız bu cür icazənin (lisenziyanın) alınmasından sonra yol verilir.

## *9. CƏMİYYƏTİN FƏALİYYƏTİNİN İDARƏ OLUNMASI QAYDASI*

9.1. Cəmiyyətin ali idarə orqanı Cəmiyyətin tə'sisçisilərinin Ümumi Yığıncağıdır.

Cəmiyyətin tə'sisçisi bir şəxs olduqda o, Ümumi Yığıncağın səlahiyyətlərini təkbaşına həyata keçirir.

9.2. Cəmiyyətin tə'sisçilərinin Ümumi Yığıncağının müstəsna səlahiyyətinə qanunvericilikdə başqa şərtlər müəyyən edilməmişsə, aşağıdakılar aiddir:

a) Cəmiyyətin Nizamnaməsini və onun nizamnamə kapitalının miqdarını dəyişdirmək;

b) Cəmiyyətin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək o cümlədən, Direktorun və baş mühasibin tə'yin edilməsi və geri çağırılması;

c) Cəmiyyətin illik hesabatlarını və muhasibat balanslarını təsdiq etmək, onun mənfətini və zərərini bölüşdürmək;

ç) Cəmiyyətin yenidən təşkili və ya ləğvi haqqında qərar qəbul etmək;

d) Cəmiyyətin təftiş komisiyasını (müfəttişini) seçmək.

e) Cəmiyyətin fəaliyyətinin əsas istiqamətlərinin müəyyən olunması, onların yerinə yetirilməsinə dair plan və hesabatların təsdiqi;

ə) onun filial və nümayəndəlikləri daxil olmaqla Cəmiyyətin fəaliyyətinin illik nəticələrinin, auditor rəy və hesabatlarının təsdiq olunması, zərərlərin ödənilməsi qaydası;

f) tabe müəssisələrin, filialların və nümayəndəliklərin yaradılması, yenidən təşkili və ləğv olunması, onlar haqqında əsasnamələrin (nizamnamələrin) təsdiqi;
g) Cəmiyyətin vəzifəli şəxslərinin əmlak məs'uliyyətinə cəlb olunmasına dair qərarların çıxarılması;
ğ) Cəmiyyətin fəaliyyətinə xitam verilməsinə dair qərar qəbul olunması, ləğvetmə komissiyasının təyin olunması, ləğvetmə balansının təsdiqi;
h) tə'sisçilər tərəfindən əlavə haqların keçirilməsinin qayda, forma və ölçülərinin müəyyən olunması;
ö) bank kredit və ya digər kreditlər götürülməsinə dair qərarların verilməsi.

9.3. Cəmiyyətin fəaliyyətinə cari rəhbərlik Cəmiyyətin icraedici orqanı olan Direktor tərəfindən həyata keçirilir.

Direktor Cəmiyyətin adından vəkalətnaməsiz fəaliyyət göstərir, Cəmiyyətin operativ idarə edilməsini həyata keçirir, üçüncü şəxslərlə münasibətdə, o cümlədən məhkəmədə Cəmiyyəti təmsil edir, Ümumi Yığıncağın təstiqinə verilən sənədləri hazırlayır, Cəmiyyətin adından əqdlər bağlayır, rəsmi sənədləri imzalayır, Cəmiyyətin işçilərini vəzifəyə təyin edir, başqa işə keçirir, vəzifəsindən azad edir, onların vəzifə maaşlarını müəyyən edir, onların barəsində həvəsləndirmə və tənbeh tədbirlərinin görülməsi haqqında əmrlər verir. Qanunvericiliklə və Cəmiyyətin nizamnaməsi ilə ümumi yığıncağın, müşahidə şurasının və təftiş komisiyasının (müfəttişin) səlahiyyətlərinə aid edilməyən digər səlahiyyətləri həyata keçirir.

Direktor əmək müqaviləsində və qanunvericilikdə nəzərdə tutulan əsaslarla Müqavilə müddəti başa çatanadək Ümumi Yığıncağın qərarı ilə tutduğu vəzifədən azad edilə bilər.

Direktor Cəmiyyətin hər hansı bir təsisçisinin tələbi ilə müəssisəyə vurduğu zərəri qanunvericiliklə müəyyən edilmiş qaydada ödəməyə borcludur.

9.4. Cəmiyyət illik maliyə hesabatının düzgünlüyünü yoxlatmaq üçün hər il əmlak mənafeləri ilə Cəmiyyətə və ya onun təsisçilərinə bağlı olmayan peşəkar auditor cəlb etməlidir (kənar audit). Cəmiyyətin illik maliyyə hesabatının auditor yoxlanışı hər hansı təsisçinin tələbi ilə də aparıla bilər. Bu halda auditor yoxlanışı həmin yoxlamanı tələb edən təsisçinin hesabına aparılır. Cəmiyyətin fəaliyyətinin auditor yoxlanışlarının aparılması qaydası qanunvericilik və cəmiyyətin Nizamnaməsi ilə müəyyənləşdirilir.

9.5. Cəmiyyətin maliyə-təsərrufat fəaliyyətinə nəzarəti həyata keçirmək məqsədi ilə tə'sisçilərin qərarı ilə maliyyə-təftiş komissiyası yaradıla bilər.

Auditor yoxlamalarının aparılması qaydası, maliyyə-təftiş komissiyasının vəzifələri, funksiyaları və səlahiyyətləri, onların işini təşkil edən qaydalar Azərbaycan Respublikasının qanunvericilik aktları ilə və Ümumi Yığıncağın qanunvericiliyə uyğun olan qərarı ilə tənzimlənir.

9.6. Cəmiyyətin tə'sisçilərinin Ümumi Yığıncağı zəruri hallarda çağırılmalıdır.

Hər bir təsisçi Ümumi Yığıncağın İclaslarında Cəmiyyətin Nizamnamə kapitalındakı payına müvafiq səsə malikdir.

## 10. CƏMİYYƏTİN ƏMLAKININ YARANMASI VƏ GƏLİRİN BÖLÜŞDÜRÜLMƏSİ QAYDASI

10.1. Cəmiyyətin əmlakı onun əsas fondlarından və dövriyyə vəsaitlərindən, o cümlədən dəyəri Cəmiyyətin müstəqil balansında əks olunan digər dəyərlərdən ibarətdir.
10.2. Cəmiyyətin əmlakı Cəmiyyətin mülkiyyətindədir.
10.3. Cəmiyyətin əmlakının yaranma mənbələri aşağıdakılardır:

a) tə'sisçilərin pul və maddi payı;
b) göstərilmiş xidmətlərdən, görülmüş işlərdən, məhsul satışından və həm də təsərrüfat fəaliyyətinin digər növlərindən əldə olunan gəlirlər;
v) qiymətli kağızların satışından əldə olunan gəlirlər;
q) bank və digər kreditlər;
ğ) kapital qoyuluşları;
e) Azərbaycan Respublikası qanunvericilik aktları ilə qadağan edilməyən digər mənbələrdən əldə edilən gəlirlər.

10.4. Cəmiyyətin istifadəsinə verilmiş əmlakın təsadüfi məhv olunması və ya korlanması riskini bu əmlakı verən tə'sisçi daşıyır.
10.5. Bütün vergilər və büdcəyə ödənişlər ödənildikdən sonra yerdə qalan təmiz gəlirin tə'sisçilər arasında bölünməsi onların Cəmiyyətin Nizamnamə kapitalındakı paylarına mütənasib olaraq həyata keçirilir.

## 11. CƏMİYYƏTİN İŞİNİN PLANLAŞDIRILMASI, UÇOTU VƏ HESABATI

11.1. Cəmiyyət öz istehsal etdiyi məhsullara, yerinə yetirdiyi işlərə, göstərdiyi xidmətlərə olan tələbatı nəzərə alaraq müstəqil surətdə öz fəaliyyətini planlaşdırır və inkişaf perspektivlərini və eyni zamanda istehsal və sosial inkişafın, öz işçilərinin şəxsi gəlirlərinin artırılmasının təmin olunmasının zəruriliyini müəyyən edir.
11.2. Cəmiyyət öz fəaliyyətinin nəticələrinə görə qanunvericiliklə müəyyən edilmiş qaydada və formada mühasibat və əməliyyat uçotu, statistik hesabat aparır, balans tərtib edir.

## 12. SIĞORTALANMA

12.1.Cəmiyyətin əmlakının, istehsal, maliyyə və digər risklərinin sığortası onun öz mülahizəsi ilə Azərbaycan Respublikası qanunvericiliyi ilə məcburi sığorta nəzərdə tutulmazsa, həyata keçirilir.

## 13. VERGİ QOYMA

13.1. Cəmiyyət Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən olunmuş vergiləri ödəyir.

## 14. ƏMƏK MÜNASİBƏTLƏRİ

14.1. Cəmiyyətdə işəgötürmə və azadetmə məsələləri, əmək rejimi, əmək haqqı, kompensasiyalar da daxil olmaqla əmək qanunvericiliyi ilə tənzimlənir.

14.2. Əmək haqqı, Cəmiyyətin işçilərinin sosial təminatı məsələləri, məzuniyyətlərin verilməsi onların hər biri ilə bağlanan əmək müqavilələri əsasında qanunvericiliyə uyğun qaydada həll edilməlidir.

## 15. SOSİAL SIĞORTA VƏ TƏMİNAT

15.1. Cəmiyətin işçilərinin sosial sığortası və təminatı Azərbaycan Respublikasının qanunvericilik normaları ilə tənzimlənir.

## 16. CƏMİYYƏTİN YENİDƏN TƏŞKİLİ VƏ LƏĞV OLUNMASI

16.1. Cəmiyyətin yenidən təşkili və ləğv olunması Azərbaycan Reçpublikasının mülki məcəlləsininə və digər qanunvericilik aktlarında müəyyən edilmiş qaydada həyata keçirilir.

## 17. DİGƏR ŞƏRTLƏR

17.1. Cəmiyyətin fəaliyyəti ilə əlaqədar olan, lakin bu Nizamnamə ilə tənzimlənməyən məsələlər Tə'sisçilərin Ümümi Yııncağının qəbul etdiyi qərarla və Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

17.2. Bu Nizamnamə onun dövlət qeydiyyatından keçdiyi andan qüvvəyə minir.

17.3. Bu Nizamnamə Tə'sisçilərin (Tə'sisçinin) Ümumi Yığıncağının yekdil qərarı əsasında tamamlana, tam, yaxud qismən dəyişdirilə bilər.

17.4. Bu Nizamnamədə edilən dəyişikliklər (əlavələr), təsisçinin pay haqqının dəyiməsi, təsərrüfatın fəaliyyəti və qərarlarının qəbul edilməsi qaydasına dair dəyişikliklər, öz ünvanının və ya poçt ünvanının dəyişməsi, törəmə təsərrüfat cəmiyyətlərinin, filiallarının, nümayəndəliklərinin yaradılması (həmçinin onların olduğu yer) barədə və digər hallarda Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyat kitabında müvafiq dəyişiklərin edilməsi üçün bir ay müddətində Dövlət qeydiyyat orqanına mütləq müraciət etməlidir.

17.5. Nizamnamənin dəyişdirilməsi onun dövlət qeydiyyatından keçdiyi andan qüvvəyə minir.

17.6. Gələcəkdə bu nizamnamənin hər hansı müddəası qanunvericiliklə ziddiyyət təşkil edərsə, qanunvericiliyin müddəası tətbiq edilir.

17.7. Cəmiyyətin səlahiyyətli şəxsləri bu Nizamnamənin, habelə digər müvafiq normativ-hüquqi aktların müddəalarının pozulmamsına görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

17.8. Cəmiyyətin təsisçisinin cəmiyyətin öhdəliklərinə görə məhdud məsuliyyəti onun müvafiq qanunvericiliyin pozulmasına görə digər məsuliyət növlərindən azad etmir.

17.9. Dövlət orqanları öz səlahiyyətləri hədlərində qanunvericiliklə müəyyən edilmiş qaydada cəmiyyətin fəaliyyətinə nəzarəti həyata keçirirlər.

AZƏRBAYCAN RESPUBLİKASININ
ƏDLİYYƏ NAZİRLİYİ

*«QARDAŞLIQ»*
*məhdud məs*uliyyətli cəmiyyət*

Dövlət qeydiyyatı haqqında

# ŞƏHADƏTNAMƏ

№ 1003-A1-402

Bərdə şəhəri « 28 » yanvar 2003-cü il

1. **«Qardaşlıq»**
(hüquqi şəxsin, filialın, yaxud nümayəndəliyin tam adı)

**məhdud məs*uliyyətli cəmiyyət**

2. 5080929
(identifikasiya kodu)

3. 28 yanvar 2003-cü il
(dövlət qeydiyyatının aparıldığı tarix)

4. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bərdə Bölgə Şö*bəsi
(dövlət qeydiyyat orqanı)

5. Bina və yaşayış evlərinin, komplekslərin və
(əsas fəaliyyət növləri)
qurğuların, köməkçi obyektlərin tikintisi və tə*miri, o cümlədən əhaliyə digər tikinti xidmətlərinin göstərilməsi, habelə nizamnamə ilə yol verilən və mövcud qanunvericiliklə qadağan edilməyən digər fəaliyyət növləri

6. xüsusi
(mülkiyyət forması)

7. məhdud məs*uliyyətli cəmiyyət
(təşkilati-hüquqi forması)

8. Azərbaycan Respublikası, Ağcabədi rayonu,
(yerləşdiyi ərazi və poçt ünvanı)
Aşağı Avşar kəndi

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bərdə Bölgə Şö*bəsinin müdiri:** M.O.HÜSEYNOV

M. Y.

İcraçı: R.Ə.Əliyev

AZƏRBAYCAN RESPUBLİKASI

UÇOT VAHİDLƏRİNİN

DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLMƏSİ

HAQQINDA

# ŞƏHADƏTNAMƏ

0076986

______SAYLI ŞƏHADƏTNAMƏ

"Qardaşlıq" məhdud məsuliyyətli cəmiyyəti

(Hüquqi vahidin adı)

Ağcabədi r-nu.Aşağı Avşar kəndi

(Ünvanı)

MÜSTƏQİL

(Tabeçiliyi)

ÜMUMİ BİNA TİKİNTİSİ

(Əsas fəaliyyəti)

(Digər fəaliyyəti)

XÜSUSİ MÜLKİYYƏT

(Mülkiyyət növü)

MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT

(təşkilati - hüquqi forması)

| | |
|---|---|
| Təşkilati-hüquqi forması kodu | 21 |
| İdentifikasiya kodu | 5080929 |
| Əsas fəaliyyətinin kodu | 45211 |
| Digər fəaliyyətlərinin kodları | |
| | |
| | |
| | |
| | |
| Tabeçilik kodu | 3918 |
| Yerləşdiyi ərazinin kodu | 60813038 |
| Mülkiyyət növünün kodu | 2 |

ƏDLİYYƏ NAZİRLİYİ

(Dövlət qeydiyyatı aparan orqanın adı)

1003-A1-402
(Qeydiyyat N-si)

01/28/03
(Qeydiyyat tarixi)

Dövlət Statistika Komitəsi tərəfindən uçot vahidlərinin Dövlət Reyestrinə daxil edilib

Sədr ______

"____" ______________200___il

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT STATİSTİKA KOMİTƏSİ • STATE COMITES OF REPUBLIC OF AZERBAIJAN ON STATISTICS

**AZƏRBAYCAN RESPUBLİKASI**
**VERGİLƏR NAZİRLİYİ**

**Vergi ödəyicisinin uçota alınması haqqında**

# ŞƏHADƏTNAMƏ

VÖEN
3400029241

Vergi ödəyicisinin adı
"QARDAŞLIQ" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT

Vergi ödəyicisinin ünvanı
AZ0411, AĞCABƏDİ RAYONU, AŞAĞI AVŞAR

Verilmə tarixi
01.09.2004

8 SAYLI ƏRAZİ VERGİLƏR İDARƏSİNİN RƏİS MÜAVİNİ E.KAZIMOV

M.Y.

AZƏRBAYCAN RESPUBLİKASI
VERGİLƏR NAZİRLİYİ

Kommersiya hüquqi şəxslərinin

# DÖVLƏT REYESTRİNDƏN ÇIXARIŞ

***8 saylı Ərazi Vergilər İdarəsi***

*Qurumun adı* "QARDAŞLIQ" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT

*Qeydiyyata alındığı tarix* 28.01.2003

*Əvvəlki dövlət qeydiyyat №* 1003-A1-402

*Dövlət qeydiyyat № (VÖEN)* 3400029241

*Təşkilati-hüquqi forması* Məhdud məsuliyyətli cəmiyyət

*Maliyyə ili* 1 yanvar-31 dekabr

*Hüquqi ünvanı* AZ0411, AĞCABƏDİ RAYONU, AŞAĞI AVŞAR

*Nizamnamə kapitalının miqdarı (ödənilmiş)* 10.00 manat

*Təsisçilər və nizamnamə kapitalında mayalarının miqdarı*
İSMAYILOV FAMİL ƏNVƏR OĞLU - 5 pay

*Qanuni təmsilçi* İSMAYILOV FAMİL ƏNVƏR OĞLU

*Çıxarışın verildiyi tarix və №* 15.07.2016. 1608020036162600

***Hüquqi şəxs Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 30.04.2007-ci il tarixli Fərmanına əsasən "bir pəncərə" prinsipi ilə dövlət qeydiyyatına alınmışdır.***

Kazımov E.S.

Qeydiyyat orqanının rəhbəri

# LİSENZİYA

№ 091108

Qeydiyyat nömrəsi iN/L-1707/2016 "3" august 2016 il

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

(lisenziyanı verən dövlət orqanının adı)

Tikintisinə icazə tələb olunan bina və qurğuların

(fəaliyyət növü)

tikinti-quraşdırma işlərini

həyata keçirməyə icazə verir.

Lisenziya verilib "Qardaşlıq"

(hüquqi şəxslər üçün - lisenziya verilən hüquqi

Məhdud Məsuliyyətli Cəmiyyətinə

şəxsin adı və hüquqi ünvanı; fiziki şəxslər üçün - adı, atasının adı, soyadı, şəxsiyyət

Ağcabədi rayonu, Aşağı Avşar kəndi,

vəsiqəsinə dair məlumat (seriya, nömrə, kim tərəfindən və nə vaxt verilmişdir, ünvanı)

VÖEN 3400029241

Lisenziyanın qüvvədə olduğu müddət Müddətsiz il.

Lisenziyanı təsdiq edən məsul şəxs SAHİB MƏMMƏDOV

(adı, soyadı)

Vəzifəsi NAZİR MÜAVİNİ

(imza)

M.Y.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

# LİSENZİYANIN ƏLAVƏSİ

Qeydiyyat nömrəsi iN/L-1707/2016/1 "3" avqust 2016 il

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi 84 (Hökumət evi) tərəfindən "3" avqust 2016 il tarixində iN/L-1707/2016 qeydiyyat nömrəsi ilə verilmiş lisenziya əsasında **"Qardaşlıq" Məhdud Məsuliyyətli Cəmiyyətinə** (hüquqi ünvanı: Ağcabədi rayonu, Aşağı Avşar kəndi, VÖEN 3400029241) tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işləri fəaliyyəti üzrə görülməsinə icazə verilən işlərin

SİYAHISI

3. Daş-hörgü işləri
4. Monolit beton və dəmir-beton konstruksiyaların qurulması, yığma beton və dəmir-beton konstruksiyaların quraşdırılması
8. Dam örtük işləri:
8.3. ədədi materiallardan dam örtükləri

**Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini** **Sahib Məmmədov**

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

## LİSENZİYANIN ƏLAVƏSİ

Qeydiyyat nömrəsi İN/L - 1707/2016/2 "6" iyun 2017 il

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi 84, Hökumət evi) tərəfindən "3" avqust 2016 il tarixində İN/L - 1707/2016 qeydiyyat nömrəsi ilə verilmiş lisenziya əsasında **"Qardaşlıq" Məhdud Məsuliyyətli Cəmiyyətinə** (hüquqi ünvanı: Ağcəbədi rayonu, Aşağı Avşar kəndi, VÖEN 3400029241) tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işləri fəaliyyəti üzrə görülməsinə icazə verilən işlərin

SİYAHISI

1. Xüsusi torpaq işləri:

1.1. ankerlərin torpağa bərkidilməsi və binaların "torpaqda divar" üsulu ilə tikilməsi

1.2. enmə quyularının və kessonların qurulması

1.3. qazma-partlayış işləri və qaya torpaqlarının çıxarılması

3. Metal konstruksiyaların quraşdırılması

4. Ağac konstruksiyaların quraşdırılması

5. Fasad işləri

7. Mühəndis-kommunikasiya və şəbəkələrinin qurulması işləri

11. Xüsusi qurğuların tikintisi və quraşdırılması:

11.3. elektrik ötürücü xətləri

12. Sənaye və mülki obyektlərin tikintisi:

12.1. aşırımı 24 metrədək

12.2. aşırımı 24 metr və daha çox

12.3. hündürlüyü 65 metrədək

12.4. hündürlüyü 65 metr və daha çox

12.5. tutumu 5 min nəfərədək

12.6. tutumu 5 min nəfər və daha çox

**Azərbaycan Respublikası**
**iqtisadiyyat nazirinin müavini** **Sahib Məmmədov**

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

# «QARDAŞLIQ» MMC

## GÖRDÜYÜ İŞLƏR HAQQINDA MƏLUMAT

| Sıra N | Layihənin və ölkənin adı | Sifarişçinin adı | Görülmüş için başa çatma tarixi | Müqavilləsinin dəyəri AZN |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1 | Nəsimi rayonu 19 saylı orta məktəbdə 420 ş/y 21 əlavə sinif otağının tikintisi | Təhsil Nazirliyi | 2006 TQİ | 480 479,00 |
| 2 | Nəsimi rayonu 164 saylı orta məktəbdə 840 ş/y 42 əlavə sinif otağının tikintisi | Təhsil Nazirliyi | 2007 TQİ | 957 000,00 |
| 3 | Quba rayonu Xınalıq kəndində 300 ş/y orta məktəbin tikintisi | Təhsil Nazirliyi | 2007 TQİ | 1 238 000,00 |
| 4 | Quba rayonu Qırız Dəhnə kəndində 80 ş/y orta məktəbin tikintisi | Təhsil Nazirliyi | 2007 TQİ | 188 500,00 |
| 5 | Bakı şəhəri Nəsimi rayonu Uşaq Gənclər Olimpiya Ehtiyatları mərkəzinin əsaslı təmiri. | Təhsil Nazirliyi | 2007 TQİ | 400 000,00 |
| 6 | Samux rayonu Qovlarsan kəndində 220 ş/y orta məktəbin tikintisi | Təhsil Nazirliyi | 2008 TQİ | 833 000,00 |
| 7 | Quba rayonu Susay kəndində 220 ş/y orta məktəbin tikintisi | Təhsil Nazirliyi | 2008 TQİ | 833 699,00 |
| 8 | Qusar rayonu Kirik kəndində 220 ş/y orta məktəbin tikintisi | Təhsil Nazirliyi | 2008 TQİ | 834 339,00 |
| 9 | Mingəçevir şəhəri, "Yeni həyat" qəsəbəsində Ağdam rayon 24 saylı orta məktəbin tikintisi | MKSİF | 2008 TQİ | 050-315-98-08 |
| 10 | Qobustan rayonu Mərəzə qəsəbəsində 220 ş/y orta məktəbin tikintisi | Təhsil Nazirliyi | 2008 TQİ | 639 888,00 |
| 11 | Nəsimi rayonu üzrə məktəblərdə istilik sisteminin bərpası və qazanxanaların tikintisi | Təhsil Nazirliyi | 2008 TQİ | 642 800,00 |
| 12 | Suraxanı rayonu üzrə məktəblərdə istilik sisteminin bərpası və qazanxanaların tikintisi | Təhsil Nazirliyi | 2008 TQİ | 699 250,00 |
| 13 | Bakı şəhəri, Xətai rayonu 116 saylı orta məktəb üçün 500 ş/y 25 əlavə sinif otağının tikintisi | Təhsil Nazirliyi | 2008 TQİ | 955 910,00 |
| 14 | Beyləqan rayonu ərazisində məcburi köçkünlər üçün salınan 500 ailəlik yeni qəsəbədə 45 ədəd yaşayış evinin tikintisi | MKSİF | 2008 TQİ | 1 860 274,00 |
| 15 | Quba rayonu Təngaltı kəndində 220 ş/y orta məktəbin tikintisi | Təhsil Nazirliyi | 2008 TQİ | 1 069 250,00 |
| 16 | Quba rayonu Hil kənd K.Kərimov adına orta məktəbin təmiri | Təhsil Nazirliyi | 2008 TQİ | 608 250,00 |
| 17 | Nərimanov rayonu 57 saylı 960 ş/y orta məktəbin əsaslı təmiri | Təhsil Nazirliyi | 2009 TQİ | 717 231,00 |
| 18 | Goranboy rayonu ərazisində məcburi köçkünlər üçün salınan 596 ailəlik yeni qəsəbədə 60 ədəd yaşayış evinin tikintisi | MKSİF | 2009 TQİ | 1 800 000,00 |

| | | | | |
|---|---|---|---|---|
| 19 | Ağdam rayonu ərazisində məcburi köçkünlər üçün salınan 689 ailəlik yeni qəsəbədə 50 yerlik uşaq baxçası, klub - icma mərkəzi, inzibati binanın tikintisi | MKSİF | 2010 TQİ | 1 060 660,00 |
| 20 | Beyləqan rayonu 3 saylı orta məktəb üçün 360 şagird yerlik məktəb binasının tikintisi | Təhsil Nazirliyi | 2010 TQİ | 1 330 392,00 |
| 21 | Seçki məntəqələrinin quraşdırılmasına görə Quba məktəblərinin təmiri (12 ədəd) | Təhsil Nazirliyi | 2010 TQİ | 547 142,00 |
| 22 | Seçki məntəqələrinin quraşdırılmasına görə Qusar məktəblərinin təmiri (2ədəd) | Təhsil Nazirliyi | 2010 TQİ | 72 259,00 |
| 23 | Bakı şəhəri Bakı şəhəri Nərimanov rayonunda 1000ş/y orta məktəbin tikintisi | Təhsil Nazirliyi | 2010 TQİ | 7 820 072,00 |
| 24 | Hacıqabul rayonu Kolanı Kənd tam orta məktəbində bərpa-gücləndirmə işləri və 60 şagird yerlik əlavə tədris korpusunun tikintisi | Hacıqabul rayonu İcra Hakimiyyəti | 2011 TQİ | 720 000,00 |
| 25 | Haclqabul rayonu Tağlı Kənd 80 şagird yerlik tam orta məktəbinin tikintisi | Hacıqabul rayonu İcra Hakimiyyəti | 2011 TQİ | 298 000,00 |
| 26 | Haclqabul rayonu Rəcbər Kənd tam orta məktəbində bərpa gücləndirmə işləri | Hacıqabul rayonu İcra Hakimiyyəti | 2011 TQİ | 1 205 634,00 |
| 27 | Kürdəmir Rayonu 1 saylı uşaq bağçasının əsaslı təmiri | Kürdəmir Rayonu İcra Hakimiyyəti | 2011 TQİ | 200 000,00 |
| 28 | Ağcabədi rayonu Mehrablı kənd 220 şagird yerlik orta məktəbin tikintisi | Təhsil Nazirliyi | 2011 TQİ | 1 180 843,00 |
| 29 | Beyləqan rayonu 3 saylı orta məktəb üçün 360 ş/y məktəb binasının tikintisi | Təhsil Nazirliyi | 2011 TQİ | 1 330 392,00 |
| 30 | Ağcabədi rayonu 3 № li 960 şagird yerlik məktəb - lisey binasının tikintisi | Təhsil Nazirliyi | 2011 TQİ | 2 471 840,00 |
| 31 | Bərdə rayonu, Zümürxan kəndində 360 şagird yerlik orta məktəb binasının tikintisi | Təhsil Nazirliyi | 2011 TQİ | 1 382 380,00 |
| 32 | Beyləqan rayonu, Çəmənli kəndində 220 şagird yerlik tam orta məktəb binasının tikintisi | Təhsil Nazirliyi | 2011 TQİ | 1 164 278,00 |
| 33 | Goranboy rayon Alpout kənd 220 şagird yerlik tam orta məktəbin tikintisi | Goranboy rayon İcra Hakimiyyəti | 2012 TQİ | 1 694 000,00 |
| 34 | Agdam Pambıq Tədarükü Məntəqəsi | Kənd Təsərrüfatı Nazirliyi | 2018-cu il | 1 455 000,00 |
| 35 | Beyləqan Pambıq Tədarükü Məntəqəsi | Kənd Təsərrüfatı Nazirliyi | 2018-cu il | 1 455 000,00 |
| 36 | Zərdab Pambıq Tədarükü Məntəqəsi | Kənd Təsərrüfatı Nazirliyi | 2018-cu il | 1 455 000,00 |
| 37 | Şirvan Şəhərində Məcburi köçkünlər üçün 9 mərtəbəli 54 mənzilli yaşayış binası | MKSİF | 2019 cu il | 2 952 171,10 |
| 38 | Agdam Sort Sınaq Məntəqəsi | Kənd Təsərrüfatı Nazirliyi | 2019 cu il | 827403, 00 |
| 39 | Sabirabad Bioloji Laboratoriyasi Məntəqəsi | Kənd Təsərrüfatı Nazirliyi | 2019 cu il | 950 563,00 |
| 40 | Dövlət Sərhəd Xidmətinin Bakı şəhəri, Xəzər rayonu Mərdəkan qəsəbəsində yeni tədris korpusu | DSX | 2020-ci il | 6 800 000,00 |

**Baş direktor:** **Famil ismayılov**